***ALİ MƏCLİSİN İCLASI***

*21 oktyabr 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasının ikinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.02 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

1. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (birinci oxunuş).

2. "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Gündəlikdə duran ilk məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə Qanun layihəsi hazırlanmış, deputatlara paylanılmışdır. Layihə Hüquq siyasəti komitəsinin 17 oktyabr 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin digər komitə sədrlərinin və Aparat əməkdaşlarının iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim, hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda 11 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklərə əsasən 3 maddə tam yeni redaksiyada verilir,

4 maddə üzrə yeni məzmunda əlavələr edilir, digər 4 maddə üzrə uyğunlaşdırma məqsədilə hazırlanmış texniki xarakter daşıyan dəyişikliklər edilir.

Qanun layihəsininin hazırlanmasında məqsəd "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun və "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunlaşdırılması, eləcə də deputatın fəaliyyətinin hüquqi bazasının möhkəmləndirilməsi və deputatların maddi təminatının yaxşılaşdırılmasıdır.

Qanun layihəsinə əsasən Qanunun 4-cü maddəsinə II hissə əlavə edilir. Əlavədə qeyd olunur ki, "Karantin rejiminin tətbiqi ilə əlaqədar muxtar respublika ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlər deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilmir." Qeyd edilən dəyişikliklə deputatların maneəsiz hərəkəti təmin olunur. Onların karantin rejimində Ali Məclisin sessiyaları, komitə iclasları və digər dövlət tədbirlərində iştirakı ilə əlaqədar yarana biləcək maneələr aradan qaldırılmış olur.

Qanunun 8-ci maddəsində "Məclisi" sözü "Məclisinin komitə və" sözləri ilə əvəz edilir. Hazırda Ali Məclisdə 4 komitə fəaliyyət göstərir. Qeyd edilən dəyişiklik Ali Məclisdə komitələrin yaradılmasından irəli gəlir. Beləliklə, dəyişikliklə deputatın özünün və başqa deputatların namizədliklərini irəli sürə bildiyi vəzifələr sırasına "komitə sədri" vəzifəsi də əlavə olunur.

Qanunun 9-cu maddəsinin II hissəsinin ikinci və dördüncü bəndlərindən "və əlavələr" sözlərinin çıxarılması, üçüncü bəndində "qüvvədən düşməsi" sözlərinin "ləğv edilməsi" sözləri ilə əvəz edilməsi, III hissədə "Məclisi" sözünün "Məclisinin" sözü ilə əvəz edilməsi və həmin hissəyə "komissiyalarında" və "komissiyalarının" sözlərindən əvvəl "komitə və" sözlərinin əlavə edilməsi təklif edilir. Qeyd edilən maddəyə dəyişikliklər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişikliklərdən və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsindən irəli gəlir.

Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilmiş və "qüvvədəndüşmə" anlayışı qanunvericilikdən çıxarılmış, yalnız Konstitusiya Məhkəməsi tərəfindən "normativ hüquqi aktların qüvvədən salınması" anlayışı istisna olmaqla digər hallarda "qüvvədəndüşmə" anlayışı istifadə edilmədiyindən qanunda müvafiq dəyişikliklər təklif olunur.

Qanun layihəsinin 1.4-cü maddəsinə əsasən Qanunun 10-cu maddəsinin I hissəsindən "Naxçıvan Muxtar Respublikasının Milli Bankının idarə heyətinə" sözlərinin çıxarılması təklif olunur.

Qanunun 10-cu maddəsində deputat sorğusu verilə bilən qurumların, subyektlərin siyahısı qeyd olunmuşdur. "Naxçıvan Muxtar Respublikasının Milli Bankının idarə heyəti" sözlərinin həmin siyahıdan çıxarılması təklif olunur. Bildirmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının Milli Bankının idarə heyəti artıq fəaliyyət göstərmir. Ölkəmizdə 2009-cu ildə ümumxalq səsverməsi – referendum keçirilmiş və Konstitusiyada edilmiş dəyişikliklərə əsasən "Azərbaycan Respublikası Milli Bankı", "Azərbaycan Respublikası Mərkəzi Bankı" adlandırılmışdır. Sual oluna bilər ki, bəs "Naxçıvan Muxtar Respublikasının Mərkəzi Bankı idarə heyəti" sözləri ilə əvəz oluna bilər? Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Mərkəzi Bankı ilə onun Naxçıvan Muxtar Respublikası İdarəsi arasında funksiya və səlahiyyətlər baxımından ciddi fərqlər mövcuddur. Eyni zamanda fəaliyyəti Azərbaycan Respublikası Qanunu ilə tənzimlənən qurumun üzərinə yurisdiksiyası Naxçıvan Muxtar Respublikası ərazisinə aid olan qanunla vəzifələrin və öhdəliklərin qoyulması doğru deyil. Bu səbəbdən Qanunun 10-cu maddəsində "Naxçıvan Muxtar Respublikasının Milli Bankının idarə heyəti" sözlərinin çıxarılması təklif olunur.

Layihə ilə Qanunun 16-cı maddəsinin I hissəsində "qərarlarını" sözünün "qanunlarını" sözü ilə, "deputat etikasını gözləməlidir" sözlərinin "etik davranış qaydalarına əməl

etməlidir" sözləri ilə, II hissənin birinci cümləsində "Məclisi" sözünün "Məclisinin komitə və" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur. Qanunun hazırda qüvvədə olan redaksiyasında Milli Məclis deputatının rəhbər tutduğu normativ hüquqi aktlar sırasında Naxçıvan Muxtar Respublikasının qanunları qeyd edilməmişdir. Təklif edilən dəyişikliklərlə Naxçıvan Muxtar Respublikasının qanunları Ali Məclis deputatının rəhbər tutduğu normativ hüquqi aktlar sırasına əlavə edilir.

İkinci məsələ "deputat etikası" ifadəsinin "etik davranış qaydaları" ifadəsi ilə əvəz olunmasıdır. Ümumiyyətlə, qanunvericilikdə "etika" ifadəsi "etik davranış qaydaları" ifadəsi ilə əvəz olunur, bu baxımdan "deputat etikası" sözünün "etik davranış qaydalarına əməl etməlidir" sözləri ilə əvəz olunması təklif olunur.

Bildiyiniz kimi, digər normativ sənədlərdə də "dövlət qulluqçularının etik davranış qaydaları", "səhiyyə işçilərinin etik davranış qaydaları", "müəllimlərin etik davranış qaydaları" ifadələri artıq "etik davranış qaydaları" ifadəsi ilə əvəz olunmuşdur.

Qanunun 16-cı maddəsinin II hissəsinin ikinci cümləsi yeni redaksiyada verilir:

"Deputat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində nəzərdə tutulmuş digər hallarda həmin Nizamnamə ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur."

Qanunun 16-cı maddəsinə təklif edilən dəyişiklik 2 nüansı özündə birləşdirir.

1. Deputatların komitə iclaslarında iştirak etməməsi məsuliyyət yaradan hal kimi qeyd olunur.

2. Qüvvədə olan redaksiyada iştirak etməmənin üzrlü və ya üzrsüz olması ilə bağlı hər hansı bir qeyd yoxdur.

Dəyişikliklər bu halda nəzərdə tutulmuşdur.

Qanunun 17-ci maddəsi də yeni redaksiyada verilir:

"Deputatın etik davranış qaydaları və həmin qaydalara əməl olunmasının hüquqi mexanizmi "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müəyyən edilir."

Təklif edilən dəyişiklik "deputat etikası" anlayışından istifadə edilməməsi və **"**Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında**"** Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədardır.

Qanunun 18-ci maddəsinin I hissəsinin ikinci cümləsində "dövlət kütləvi informasiya vasitələrində" sözlərinin "rəsmi mediada" sözləri ilə əvəz edilməsi təklif olunur. Məlum olduğu kimi, 30 dekabr 2021-ci il tarixdə "Media haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Yeni qanunla "kütləvi informasiya vasitələri" ifadəsi "media, media subyektləri" ifadələri ilə əvəz olunduğundan Qanunun 18-ci maddəsinə "dövlət informasiya vasitələrində" sözlərinin "rəsmi mediada" sözləri ilə əvəz edilməsi təklif olunur.

Qanunun 21-ci maddəsi yeni redaksiyada aşağıdakı kimi təklif olunur:

"Ali Məclisin sədri 3330 manat məbləğində aylıq vəzifə maaşı alır.

Ali Məclis sədrinin birinci müavini Ali Məclis sədrinin aylıq vəzifə maaşının 95 faizi, Ali Məclis sədrinin müavini - 90 faizi, Ali Məclisin komitə sədri - 65 faizi, Ali Məclisin komitə sədrinin müavini - 60 faizi, Ali Məclisin deputatı isə Ali Məclis sədrinin aylıq vəzifə maaşının 50 faizi miqdarında aylıq vəzifə maaşı alır. Ali Məclisin sədri, onun birinci müavini və müavini hər ay vəzifə maaşlarının 2 misli, Ali Məclisin komitə sədrləri, onların müavinləri və Ali Məclisin deputatları hər ay vəzifə maaşlarının 1,5 misli həcmində vəzifə maaşına əlavələr alırlar."

Bu dəyişikliklə deputatların maddi və sosial təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması nəzərdə tutulur. Deputatların maddi və sosial qayğılardan uzaqlaşaraq normayaratma prosesinə və seçicilərin problemlərinə köklənmələri hədəflənir.

Qanun layihəsinə əsasən Qanunun 24-cü maddəsinin I hissəsi yeni redaksiyada təklif olunur:

“Deputat Naxçıvan Muxtar Respublikası ərazisində dövlət mülkiyyətində olan dəmir yolu, hava, avtomobil nəqliyyatında gediş-gəliş sənədlərini növbədənkənar əldə etmək hüququndan istifadə edir.”

Dəyişiklik deputatlara Naxçıvan Muxtar Respublikası ərazisində nəqliyyat vasitələrinə gediş-gəliş sənədlərini növbədənkənar əldə etmək hüququ verir.

Qanunun 28-ci maddəsi yeni redaksiyada aşağıdakı kimi verilir:

“Ali Məclis tətilə buraxıldığı vaxt deputata məzuniyyət verilir.”

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən Ali Məclis ildə iki dəfə - iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır. Tətil dövründə Ali Məclisin deputatları məzuniyyətdə sayılır. Eyni zamanda qanunun hazırkı redaksiyasında nəzərdə tutulan deputatın müalicə olunması üçün pul təminatı, bu təminatın nəzərdə tutulduğu digər sahələrdə də ləğv edilmişdir.

Dəyişikliklə Qanunun 29-cu maddəsinə aşağıdakı məzmunda I hissənin əlavə edilməsi nəzərdə tutulur:

“Səlahiyyət müddəti qurtardıqdan sonra sabiq deputat işə düzələnədək, 1 il müddətində hər ay deputatın aylıq vəzifə maaşının 80 faizi məbləğində qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müavinət alır.”

Təklif edilən dəyişiklik ilə səlahiyyət müddəti bitmiş deputatın yeni işə düzələnədək maddi təminatının aşağı düşməməsi hədəflənir.

Təklif edilən qanun layihəsi, ümumilikdə, mütərəqqi xarakter daşıyır və “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğundur.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 17 oktyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitənin iclasında Qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin digər komitə sədrlərinin iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə iclasında Qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy layihəsi hazırlanmış, rəy layihəsi barədə komitə iclasında səsvermə keçirilmiş və rəy yekdilliklə qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəliyinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Buyurun, Emin müəllim!

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim! Hörmətli deputatlar!

İlk növbədə, hər birinizi salamlayıram. Ali Məclisin Hüquq siyasəti komitəsinin 17 oktyabr 2024-cü il tarixli iclasında komitə sədri olaraq iştirak etdim və iclasın gündəliyinə daxil edilmiş məsələlərlə yaxından tanış oldum. Xüsusi olaraq qeyd etməliyəm ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa təklif edilmiş müvafiq maddələr üzrə dəyişikliklərin "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması deputatlıq fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi və sosial təminatların yaxşılaşdırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyətə malikdir.

Qeyd edim ki, karantin rejimi zamanı muxtar respublika ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlərin deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilməməsi kimi normaların layihəyə daxil edilməsi deputatlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri şərait yaradacaqdır.

Dəyişikliklərlə deputatların əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması və ölkə qanunvericiliyinə uyğunlaşdırılması isə deputatın nüfuzuna və sosial təminatına müsbət mənada təsir edən amil kimi yüksək dəyərləndirilməlidir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 48-ci maddəsinin I və II hissələrində qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir və Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır. Müvafiq qanuna edilmiş dəyişiklik və muxtar respublikanın qanunvericilik bazasının ölkə qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində atılan addımlar bu baxımdan da vacib və təqdirəlayiqdir.

Layihə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanmışdır. Dəyişikliklərlə bağlı müzakirələrin səmərəli olduğunu düşünürəm və deputat həmkarlarımı qanun layihəsinə oxunan qaydada dəstək verməyə çağırıram.

Çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Emin müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Ülkər xanım!

**Ü.Bayramova,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim, hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bu gün keçirilən növbəti iclasında müzakirəyə çıxarılan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa edilən dəyişikliklərlə bağlı öz fikrimi bildirmək istəyirəm.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda deputatın səlahiyyətləri, fəaliyyəti, vəzifələri və maddi təminatı ilə bağlı, ümumilikdə, 11 maddəyə dəyişiklik edilməsi təklif olunur. Bu maddələrə təklif edilən dəyişikliklər deputatın fəaliyyətinin daha səmərəli təşkil edilməsini təmin edəcək. Xüsusilə, qanunun 9-cu maddəsində deputatın qanunvericilik təşəbbüsü hüququ, onun həyata keçirilməsi formaları və təmin edilməsi ilə bağlı normayaratma prinsiplərinə uyğun edilən dəyişiklik deputatın əsas fəaliyyət istiqamətlərindən biri kimi qanunvericilik prosesində daha fəal iştirak etməsinə geniş imkan yaradır. Ümumilikdə, layihədə hər bir maddəyə təklif edilən dəyişikliklər Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün mövcud hüquqi və sosial təminatları daha da təkmilləşdirməyi nəzərdə tutur.

Mən də bütün deputat həmkarlarımı qanun layihəsinə səs verməyə çağırıram.

Təşəkkür edirəm!

**Sədrlik edən.** Çox sağ olun!

Başqa çıxış etmək istəyən varmı?

Buyurun, Nuray xanım!

**N.Əliyeva,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim! Hörmətli deputatlar!

Sosial siyasət komitəsinin sədri kimi Hüquq siyasəti komitəsinin iclasında Qanun layihəsinin müzakirəsində iştirak edərək, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa edilən dəyişikliklərlə tanış oldum. Dəyişikliklərin zəruri olduğunu, deputatların və Ali Məclisin fəaliyyətinə müsbət təsir göstərəcəyini düşünürəm. Layihədə deputatın statusuyla bağlı bir sıra məsələlər nəzərdə tutulmuşdur. Konkret olaraq deputatların məzuniyyət hüququ ilə bağlı məsələyə toxunmaq istəyirəm. Ali Məclis tətilə buraxılan zaman deputatlara məzuniyyət verilməsi nəzərdə tutulur və deputatlıq səlahiyyəti başa çatdıqdan sonra 1 il müddətinə işə düzələnə qədər hər ay sabiq deputata Ali Məclis deputatının aylıq vəzifə maaşının 80 faizi miqdarında müavinət verilməsi imkanı yaradılması məsələsi də burada öz əksini tapmışdır. Düşünürəm ki, bu qanuna ediləcək dəyişikliklər deputatların öz fəaliyyətlərini daha məqsədyönlü qurmalarına imkan verəcək. Mən də qanun layihəsinin qəbuluna səs verəcəyəm və deputat həmkarlarımın hər birindən bu layihəyə dəstək olmalarını xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Nuray xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Pərvin xanım!

**P.Nəcəfsoy.** Hörmətli Bəxtiyar müəllim! Hörmətli deputatlar!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə tanış oldum. Layihədə nəzərdə tutulmuş dəyişikliklər deputatın fəaliyyətinin düzgün qurulması üçün vacib olan dəyişikliklərdir. Qanunun mətninin mövcud qanunlara uyğunlaşdırılması, xüsusilə, deputatların maddi təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması təqdirəlayiqdir.

Bununla yanaşı, deputatlar üçün parlamentdaxili məsuliyyətin Ali Məclisin Daxili Nizamnaməsinə uyğunlaşdırılması, həmçinin etik davranış qaydaları ilə bağlı normaların qanunun mətninə gətirilməsi deputatları daha məsuliyyətli olmağa sövq edəcəkdir.

Əməkhaqlarının yüksək səviyyədə tənzimlənməsinə görə ölkə Prezidentinə və muxtar respublika rəhbərliyinə minnətdarlıq etmək istəyirəm. Əməkhaqqının layihədə göstərilən qaydada təsdiq olunacağı təqdirdə deputatlar qanunvericilikdə nəzərdə tutulmuş hüquq və vəzifələri daha səmərəli yerinə yetirə biləcəkdir. Mən də deputat həmkarlarımdan layihənin qəbul olunmasına səs verməyi xahiş edirəm.

Çox sağ olun!

**Sədrlik edən.** Çox sağ olun!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Qanunun birinci oxunuşda qəbul edilməsinə etiraz edən varmı?

Yoxdur.

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsidir.

Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun və "Media haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılma məqsədi ilə hazırlanmışdır. Ali Məclisin deputatlarına təqdim edilmiş layihə Hüquq siyasəti komitəsinin 17 oktyabr 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin digər komitə sədrlərinin və Aparat əməkdaşlarının iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim! Hörmətli deputatlar!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda 8 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklər uyğunlaşdırma məqsədi ilə hazırlanmış texniki xarakter daşıyan dəyişikliklərdir.

Qanun layihəsinin hazırlanmasında məqsəd "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununun və "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunlaşdırılmasıdır.

Qanun layihəsinə əsasən qanuna 1.0.7-1-ci maddə əlavə edilir. Əlavədə qeyd olunur:

"Naxçıvan Muxtar Respublikasının Qanunvericilik Toplusu (bundan sonra – toplu) – qəbul edilmiş Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının dərc edildiyi illik rəsmi toplu."

Qeyd edilən dəyişikliklə Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktlarından ibarət illik rəsmi toplunun dərc edilməsi nəzərdə tutulur.

Qanunun 1.0.19-cu maddəsində "kütləvi informasiya vasitələrinin" sözlərinin "media subyektlərinin" sözləri ilə əvəz edilməsi, 9.1.2-ci maddədə və 79-cu maddənin adında "kütləvi informasiya vasitələrində" sözlərinin "media məhsullarında" sözləri ilə əvəz edilməsi və 43.3.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözlərinin "mediada" sözü ilə əvəz edilməsi təklif olunur.

Bildiyiniz kimi, 30 dekabr 2021-ci il tarixdə "Media haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu 4 maddə üzrə dəyişikliklərin edilməsini zəruri edir. Bu səbəbdən "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Media haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması məqsədilə dəyişikliklər təklif olunur.

Qanunun 65.3-cü maddəsi yeni redaksiyada aşağıdakı kimi verilir:

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisində uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutulan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə isə üç oxunuşda baxılır."

Təklif edilən dəyişiklik əsasən “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması məqsədilə edilir. Normativ hüquqi aktın layihəsinə baxılması ilə bağlı müddəalar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində də Qanuna təklif olunan dəyişikliyə uyğun tənzimlənir.

Qanunun 66.2-ci maddəsinə “onun” sözündən sonra “yekun oxunuşda” sözlərinin əlavə edilməsi təklif edilir. Təklif edilən dəyişiklik qanunun “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması məqsədilə edilir. Qanunun hazırkı redaksiyasında normativ hüquqi aktın layihəsinin geri çağırılması vaxtı qeyri-müəyyəndir. Təklif edilən dəyişikliklə normativ hüquqi aktın layihəsinin hansı müddətdə geri çağırılması anlaşılan deyildi. Yeni təklif olunan dəyişikliklə bu müddət yekun oxunuşda baxılmasına qədər müəyyən edilir. Bu dəyişikliklə qeyri-müəyyənlik aradan qaldırılmış olacaqdır.

Qanunun 68.6-cı maddəsinə “Ali Məclisində” sözlərindən sonra “birinci, ikinci və üçüncü oxunuşlarda” sözlərinin, “qanun layihəsi” sözlərindən sonra isə “müvafiq oxunuşda baxılmasına azı 5 gün qalmış” sözlərinin əlavə edilməsi təklif edilir. Təklif edilən dəyişiklik Qanunun “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması məqsədilə edilir. Burada nəzərdə tutulan məsələ qanunvericilik təşəbbüsü hüququnun subyektinə qanun layihəsinin tam mətndə və nə zaman verilməsi məsələsi ilə bağlıdır. Qüvvədə olan redaksiyada bu məsələ öz əksini tapmır. Hazırkı redaksiyasında isə həm birinci və ikinci, həm də üçüncü oxunuşlarda və baxılmaya 5 gün qalmışa qədər qanunvericilik təşəbbüsü hüququnun subyektinə qanun layihəsinin tam mətndə verilməsi qeyd olunur.

Qeyd etmək istəyirəm ki, “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 17 oktyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitə iclasında qanun layihəsi Hüquq siyasəti komitəsi üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin digər komitə sədrlərinin iştirakı ilə müzakirə edilmişdir. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy hazırlanmış, rəy layihəsi barədə səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəliyinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Qanun layihəsinin birinci oxunuşda qəbul edilməsi məqsədəuyğundur.

Sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.30 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Rafiq müəllim, buyurun!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim,

Qanun layihəsində edilmiş dəyişikliklərlə bağlı səsvermədə iştirak edən deputatların hamısı layihənin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Sağ olun!

Beləliklə, Qanun qəbul edildi.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!